**Azad Azərbaycan**



# Müəllimini gözü yaşlı qoyan İKİ ALİM

**Artıq 3 ay tamamlanmaq üzrədir ki, yetirmələrim, görkəmli alimlər Zahid Məmmədov və Məhərrəm Həsənov haqq dünyasına qovuşmuşlar. Yoxluqlarına inana bilmədiyim yetirmələrim barədə məqalə yazmaq qərarına gəldim. Yazımı necə yazmaq məni gücü çatmayan dağ boyda ağır bir yükü çiyinlərinə alıb, bu yükün altında ümid, çarə axtaran bir Allah bəndəsinə çevirir, içim yanır, qəlbim təlatümə gəlir. Elə bil iki qolları qırılmış bir bədənəm - qollarım Zahid və Məhərrəm idi. Övladlarım qədər mənə əziz, dəyərli alimlər, ixtisasımı davam etdirən davamçılarım, yetirmələrim idilər.**

Adlarını hər zaman fəxarət və qürurla səsləndirdiyim, Azərbaycan coğrafiya elmini ölkəmizdə, həm xaricdə tanıtdıran böyük ziyalılar. Mən hər zaman düşünürdüm ki, dünyamı dəyişəndə onlar məni yola salanlar arasında olacaqlar. Deyir: "Sən saydığını say, gör fələk nə sayır".

Bir əzab zənciri boğazıma keçirib, ürəyimə sığmayanları ağ kağız parçasına köçürürəm. Amansız, gözəgörünməz düşmən, dünya ölkələri üçün dəhşət, fəlakət, bəla sayılan koronavirus (Covid-19) iki dəyərli alimi aramızdan vaxtsız apardı. Hər iki alim barədə mətbuatda, vikipediya və azad ensiklopediya istiqamətində kifayət qədər məqalələr dərc edilib. Ona görə də orta məktəbdə hər iki alimin coğrafiya müəllimi olduğumla bağlı və onlarla dostluq etdiyim üçün müəyyən fikirlərimi bildirmək istəyirəm.

Zəngilan rayonunun Mincivan qəsəbəsi 36 nömrəli dəmir yol orta məktəbini bitirmiş şagirdlərim, adlarını qürurla çəkdiyim:

**- Məmmədov Zahid Səttar oğlu və Həsənov Məhərrəm Səməd oğlunun şərəfli ömür yolunun bəzi məqamlarını diqqətə çatdıracam.**

Zahid Məmmədov tanınmış Baharlılar nəslinin görkəmli ziyalılarından biri idi. Məmmədov Zahid Səttar oğlu 1947-ci il may ayının 22-də Zəngilan rayonunun Baharlı kəndində dünyaya göz açıb. 1966-cı ildə Zəngilan rayonunun Mincivan dəmir yol orta məktəbini bitirib. Həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olub, 1970-ci ildə ali məktəbi bitirərək, coğrafiya ixtisasına yiyələnmişdir. 1970-72-ci illərdə Təhsil Nazirliyinin təyinatı əsasında Sabirabad şəhər orta məktəbində müəllim işləmişdir. Elmə olan həvəsi onu Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutuna gətirir. 1972-ci ilin sentyabr ayından Z.Məmmədov Coğrafiya İnstitutunda elmi yaradıcılığa başlayır. 1973-cü ildə Coğrafiya İnstitutunda iqtisadi coğrafiya ixtisası üzrə əyani aspiranturaya daxil olur. Goğrafiya İnstitutunun Elmi Şurasında Zahid müəllimin "Naxçıvan MSSR-nın maddi istehsalının və nəqliyyat iqtisadi əlaqələrinin inkişafının iqtisadi-coğrafi problemləri" adlı dissertasiya mövzusu təsdiq olunur. O, 1980-cı ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, coğrafiya elmləri namizədi elmi dərəcəsini alır. Zahid müəllimin bundan sonra yaradıcılığının parlaq dövrü başlayır. Z.Məmmədov "Böyük Qafqazın təbii resursları" adlı monoqrafiyanın müəlliflərindən biridir. Zahid müəllimin elmi yaradıcılığının ikinci mərhələsi Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bu günədək olan dövrü əhatə edir.

"Azərbaycan Respublikasının nəqliyyat və nəqliyyat-iqtisadi əlaqələrinin inkişafının iqtisadi-coğrafi problemləri" mövzusunda doktorluq dissertasiyasını 1996-cı ildə müvəffəqiyyətlə müdafiə edərək, coğrafiya elmləri doktoru alimlik dərəcəsi alır.

2005-ci ildə Zahid müəllim Ali Attestasiya Komissiyası tərəfindən sanballı tədqiqatlarına və pedaqoji fəaliyyətinə görə professor elmi adını alır. Professor Zahid Məmmədovun Azərbaycanın nəqliyyat sektoruna dair yazdığı fundamental monoqrafiyaları Azərbaycan elminə böyük töhfələr vermiş və verməkdədir. Avropa İttifaqı Birliyi tərəfindən həyata keçrilən TASİS və TRASEKA proqramlarının Azərbaycan iqtisadiyyatına və nəqliyyat sisteminə təsir mexanizmi ilk olaraq Zahid Məmmədovun elmi-tədqiqatlarında əsaslandırılmışdır. Zahid Məmmədov barədə müxtəlif qələm sahibləri tərəfindən çoxsaylı məqalələr yazılmışdır. Belə məqalə müəlliflərindən biri Əhməd Əsədli mətbuatda geniş çıxış etmişdir. Zahid Məmmədovun çoxşaxəli fəaliyyətilə bağlı nə qədər yazılsa belə, onun şərəfli ömür yolunu, elmi-tədqiqat və araşdırıcılıq istiqamətində gördüyü işləri əhatə etmək mümkün olmaz. Zahid müəllimlə yaxın dost olmuş "Həkəri" qəzetinin baş redaktoru, tanınmış şair-publisist Rauf İlyasoğlu Zahid müəllimin ölüm xəbəri ilə bağlı "Qəlbimizdə yaşayan iqtisadçı alim" adlı məqaləsində (dekabr 2020-ci il) yazır ki, professor Zahid Məmmədov 200-ə yaxın elmi məqalənin, 7 monoqrafiya və dərsliyin müəllifi idi. Mən Rauf müəllimlə onun məqaləsi ilə bağlı söhbət etdim və ona söylədim ki, Zahid müəllimin mənə, yəni müəlliminə hədiyyə etdiyi kitablardan təkcə "Azərbaycan Respublikasının region ölkələrinə inteqrasiyası" (ikinci kitab, Bakı 2015) kitabını oxuyan hər bir ziyalı, Zahid müəllimin nə qədər sanballı, görkəmli alim və dəyərli şəxsiyyət olduğunu təsdiq edər.

1957-62-ci illərdə mənimlə keçmiş ADU, indiki BDU-nu qutarmış, o vaxtdan bu


Həsənov Məhərrəm


Məmmədov Zahid

günə qədər aramızda dostluq münasibətlərinin davam etdiyi və hazırda Bakı Dövlət Universitetinin "Şöhrət" ordenli professoru Neron Babaxanova və Zahid müəllimlə Kooperasiya Universitetində çalışan tələbə yoldaşım professor Ağazeynal Qurbanova zəng vurub, onların Zahid müəllim haqqında fikirlərini öyrənmək istədim.

**Neron Babaxanov dedi:**

- Professor Zahid Məmmədovun elmi-tədqiqatlarında və araşdırmalarında Azərbaycanın Avroasiya ölkələri arasında əlverişli geosiyasi vəziyyəti, nəqliyyat cəhətdən "açıq qapı" roluna malik olması bir çox layihələrin həyata keçirilməsi mühüm iqtisadi əhəmiyyət kəsb edir. Və dəmir yolları, dəniz nəqliyyat daşımaları, neft və təbii qaz boru kəmərələri, nəqliyyatından, avtomobil nəqliyyatından istifadə edilməsi və göstərilən nəqliyyat növlərinin beynəlxalq normalara uyğunlaşdırılması məsələləri izah edilir.

**Professor Ağazeynal Qurbanovun söylədikləri:**

- "Mən neçə illərdir Azərbaycan Kooperasiya Universitetində professor Zahid Məmmədovun rəhbərlik etdiyi Ekologiya və Coğrafiya kafedrasında çalışıram. Zahid müəllim öz işini dərindən bilən, savadlı, geniş dünyagörüşlü, özünə və kafedra üzvlərinə tələbkar bir ziyalıdır. O, dövrümüzün dəyərli alimlərindən biri olmaqla yanaşı, öz üzərində gecə-gündüz çalışmışdır. Onun aramızdan vaxtsız getməsi şəxsən məni də sarsıtdı".

Dəyərli oxucular! - Mən 1965-1966-cı illərdə Zahidlə bir şagird-müəllim kimi söhbət edərkən Zahid mənə coğrafiyaçı olacağı və elmi işlə məşğul olmaq fikrini bildirmişdi. 1987-ci ildə respublikanın müxtəlif rayonlarından göndərilmiş coğrafiya müəllimləri Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutuna kursa gəlmişdi. Mən də kursa gələnlərdən biri idim. Birinci qoşa saatdan sonra ikinci dərsə girdik. Zahid müəllim auditoriyaya daxil oldu, müəllimlərlə salamlaşdı, məni müəllimlər arasında gördü və yaxınlaşıb səmimi təbəssümlə gülümsündü. Sonra müəllimlərə tərəf çevrilərək dedi:

**- Oqtay müəllim mənim orta məktəbdə coğrafiya müəllimim olub.**

Sonra gözəl mühazirə söylədi və müəllimlər tərəfindən rəğbətlə qarşılandı. Tənəffüs vaxtı qolumdan tutaraq dəhlizdə mənimlə söhbət etdi. Bu mənim üçün qürurverici bir an idi. Görüşümüz məni bir daha o dövrün məktəb illərinə qaytardı. O zaman kabinet üsulu ilə dərs keçirdik. Müxtəlif siyasi və fiziki xəritələr divardan asılı vəziyyətdə dururdu. Mən şagirdlərimizlə birlikdə ölkəşünaslıq muzeyi yaratmışdıq. Məktəbdə "Səyyah" adlı divar qəzeti buraxırdıq. Adlarını göstərdiyim şagirdlər o zaman qəzetin çıxarılmasında fəallıq göstərirdilər.

**Görkəmli coğrafiyaşünas alim Zahid müəllimin çoxşaxəli fəaliyyəti və şərəfli ömür yolu barədə:**

- Zahid Məmmədov Azərbaycan Kooperasiya Universitetinin kafedra müdiri, coğrafiya elmləri doktoru, professor, kamil pedaqoq və görkəmli alim kimi tanınmışdır. Zahid Məmmədov respublikada, xarici ölkələrdə keçirilmiş konfransların, simpoziumların iştirakçısı və məruzəçisi olmuşdur. Zahid Məmmədov elmi yaradıcılığı ilə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, uzun illər Respublika və Bakı Şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutlarında mühazirələr oxumuşdur. Zahid Məmmədov eyni zamanda Bakı Dövlət Universitetinin "Azərbaycan coğrafiyası" kafedrasının professoru olub.

- Professor Zahid Məmmədov istər respublika, istərsə də beynəlxalq miqyasda keçirilmiş konfrans və simpoziumlarda doğma Azərbaycanımızı ləyaqətlə təmsil edərək öz elmi çıxışları ilə böyük nüfuz qazanmışdır.

Professor Zahid Məmmədov çoxsaylı dissertasiyaların müdafiə şurasının üzvü, neçə-neçə dissertant və doktorantın elmi rəhbəri olmuşdur. O, 20 ildən çox idi ki, AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda, 10 il AMEA-nın İqtisadiyyat İnstitutunda, 6 il Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən müdafiə şurasının üzvü olmuşdur. Azərbaycan Kooperasiya Universitetində elmi şuranın və elmi metodik şuranın üzvü kimi fəaliyyət göstərmişdir. Eyni zamanda, Bakı Dövlət Universiteti və Azərbaycan Kooperasiya Universiteti nəzdində yaradılmış müdafiə şuralarının üzvü seçilmişdir. Yer elmləri üzrə Ali Attestasiya Komissiyasının üzvü kimi çalışmışdır.

Azərbaycan coğrafiya elminin ləyaqətli simalarından biri, görkəmli alim, böyük şəxsiyyət, yorulmaz elm fədaisi Zahid müəllim, ana torpağın qucağında rahat uyu, yerin cənnətlik olsun. Uca Tanrıdan sənə rəhmətlik diləyirik. Sənin parlaq xatirən səni tanıyanların qəlbində daim yaşayacaq.

**Məqalənin əvvəlində yazdığım kimi mənim bir qolum Zahid müəllim, digər qolum Məhərrəm müəllim idi.**

Uşaqlıq illərindən gözüm önündə böyüyüb məktəb yaşına çatan, məktəb illərində ibtidai sinifdə oxuduğu dövrlərdə belə hər zaman diqqətimdə olan Məhərrəm şagirdlər arasında özünün düşüncəsi, bilik və bacarığı, həm də nümunəvi tərbiyəsi ilə seçilirdi. Mən ibtidai sinif dövrünü ona görə yazmışam ki, Məhərrəm ibtidai sinifdə oxuduğu dövrdə mən ibtidai siniflər üzrə direktor müavini işləyirdim. Ona görə də sinif müəllimlərinin dərslərində olurdum və o dövrdən Məhərrəmin gələcəkdə böyük uğurlar qazanacağına əmin idim.

Məhərrəm Səməd oğlu Həsənov 1954-cü ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olmuşdur. 1971-ci ildə Mincivan qəsəbə 36 nömrəli dəmir yol orta məktəbini bitirmişdir. Həmin il o zamankı Lenin adına APİ-nin coğrafiya fakültəsinə daxil olmuş və 1975-ci ildə həmin ali təhsil ocağının coğrafiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1975-ci ildə Zəngilan rayonunda müəllim kimi başlamışdır. İki il müəllim işləmişdir.

Məhərrəm Həsənov 1978-ci ildə AMEA-nın Coğrafiya İnstitutunun əyani aspiranturasına qəbul olunmuşdur. O, 1984-cü ildə akademik İ.D.Mustafayevin elmi rəhbərliyi ilə "Dağlıq şəraitində payızlıq buğdanın inkişafına, məsuldarlığına və məhsulun keyfiyyətinə meteoroloji amillərin təsiri" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

**1983-cü ildən 2002-ci ilə kimi Coğrafiya İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. 2002-2003-cü illərdə İnstitutda "Tətbiqi iqlimşünaslıq" bölməsinin müdiri seçilmişdir.**

2004-cü ildə AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru işləmiş Azərbaycan Ağsaqqalar Şurasının sədri akademik B.Ə.Budaqovla görüşlərimin birində Məhərrəm müəllim barədə söhbət etdik. Budaq müəllim söylədi ki, "yaxşı tələbə yetirmisən". Bu mənim qəlbimdə fəxarət və qürur doğurdu. Mən də dedim ki, "Budaq müəllim həqiqətən Məhərrəm müəllim mənim ən yaxşı şagirdlərimdən biri olub və sevindirici bir cəhət də odur ki, mənim fənnimi ixtisas seçib".

Mənim üçün bir daha qürurverici o idi ki, Məhərrəm müəllim "Azərbaycan Respublikasının Coğrafiyası" üçcilidliyinin məsul icraçılarından və həmmüəlliflərindən biri olmuşdur. 2016-cı ildə bu əsərə görə ölkə Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı adına layiq görülənlərdən biri də Məhərrəm Həsənov idi. Digər sevindirici hal o idi ki, 2015-ci ildə mən vaxtilə şagirdim olmuş, gözəl qələm sahibi Alı Rəhimoğlu ilə birlikdə Zəngilan: "Tarixi coğrafiyası, iqtisadiyyatı" adlı yazdığımız elmi kitabın redaktoru Məhərrəm Həsənov olub.

M.Həsənov 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə coğrafiya elmindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə də təltif edilmişdir.

Məhərrəm müəllim 60-a yaxın elmi məqalə və xəritənin, çoxsaylı kompleks elmi tədqiqat işlərinin müəllifidir. Məhərrəm Həsənov Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərmiş, 3 dissertanta və 1 doktoranta rəhbərlik etmişdir. Onun çoxşaxəli elmi-pedaqoji fəaliyyəti ilə bağlı söylənən fikirlər:

**AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov:**

- Məhərrəm müəllim institutun elmi işlər üzrə direktor müavini vəzifəsini ləyaqətlə yerinə yetirən, öz işində məsuliyyətlə çalışan, özünə qarşı tələbkar, əhatəsində olan gənc alimlərə, dissertantlara qayğı ilə yanaşan, məsləhətlər verən əsl ziyalı, dəyərli şəxsiyyət idi. O, 2008-ci ildən Dissertasiya Şurasının elmi katibi vəzifəsini təmiz vicdanla yerinə yetirib.

**Coğrafiya elmi üzrə fəlsəfə direktoru Habil Haqverdiyev:**

- Məhərrəm Həsənov görkəmli alim, təşkilatçı rəhbər, ədəb-ərkanlı, təmkinli bir şəxsiyyət idi. O, Azərbaycanda iqlimşünaslıq elmini tərəqqi etdirən, müxtəlif mətbuat və televiziya əməkdaşlarına iqlimşünaslıqla bağlı çoxsaylı müsahibələr vermişdir. Məhərrəm müəllim son dövrdə Aqroiqlim tədqiqat işlərinin yeganə mütəxəssisi idi.

**Coğrafiya elmləri doktoru, professor Neron Babaxanov:**

- Məhərrəm müəllim mənimlə Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərib və tələbələrin sevimlisinə çevrilib. Məni Məhərrəm müəllimə yaxınlaşdıran bir səbəb də o idi ki, onun orta məktəbdə coğrafiya müəllimi Oqtay müəllim olmuşdur. Oqtay müəllim mənimlə 1957-ci ildən bir kursda oxuyub bu günə qədər dostluq etdiyim ləyaqətli bir ziyalıdır.

**Allahverdi Teymurov, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent:**

- Məhərrəm müəllim, mənim uşaqlığım, məktəb illərim, cavanlığım, gəncliyim və bu günümün yadigarı idi. Biz uşaqlıq illərindən, ta bu günə qədər daim əlaqədə olub, həm xoş, həm də dərdli günlərimizi bir yerdə bölüşmüşdük. Bizim bir-birimizdən gizli saxladığımız heç bir sirrimiz olmamışdır.

Məhərrəm müəllim illərin sınağından çıxmış, bərkdə-boşda, həyatın enişli-yoxuşlu yollarında sınanmış saf, təmiz, səmimi, etibarlı və fədakar bir dost olmuşdu. Onun dostluğu mənim üçün ən ülvi, ən zərif, ən lətif, ən təmiz, ən saf və mənəvi bir sərvət idi. O, müqəddəs, səmimiyyət və hörmət dolu dostluğunu hər zaman, hər yerdə öz əməli ilə sübut etmişdir.

O, məktəb illərindən üzübəri, gözəl davranış mədəniyyətinə malik, çöhrəsinə xoş təbəssüm cizgiləri olan zəngin mənəviyyat sahibi və unikal bir alim idi. Onun həyatının mənası xeyirxah və nəcib işlər görmək, xalqının tərəqqisinə və maariflənməsinə böyük töhfələr vermək olmuşdur. İndi onun əziz xatirəsini yada salanda şair Məmməd Rahimin aşağıdakı misraları gəlib gözlərim önündən keçir:

*Ömür dedikəlrin coşğun çay kimi,*  
*Kükrəyib köpürür, hər zaman gedir.*  
*Ona bel bağlama o qədər də sən,*  
*Bəzən açılmamış gül, bağban gedir.*

*Ey könül, fürsəti badə vermə gəl,*  
*Gün ötür, ay keçir, il yaman gedir.*  
*Çalış sən köçəndə ellər söyləsin,*  
*Dünyadan nə gözəl bir insan gedir.*

Məhərrəm müəllim Tanrının ona bəxş etdiyi ömür payını ləyaqətlə yaşamış məhz belə insanlardandır. Onun əziz xatirəsi heç vaxt unudulmayacaq və onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Məhərrəm Həsənov 2017-ci ilin iyun ayından AMEA Rəyasət Heyətinin qərarı ilə akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsini icra etmişdir. Çox təəssüf ki, gözəgörünməz düşmən koronavirus (Covid-19) onun (2020-ci il noyabrın 8-də) həyatına son qoydu.

Ürək ağrısıyla yetirmələrim Zahid Məmmədov və Məhərrəm Həsənovun ölməz ruhlarına bir neçə bəndlik qəsidə də yazmışam:

*Elə bil qırılıb qoşa qanadım,*  
*İtirib axarın günüm, saatım.*  
*Qəlbimi titrədir naləm, fəryadım,*  
*İçimdə sızlayır bir "Yanıq Kərəm",*  
*Səsimə səs vermir Zahid-Məhərrəm!*

*Susmuşam, lal olub danışan dilim,*  
*Batıbdır nəfəsdən gələn səs telim,*  
*Elmin itkisidir hər iki alim,*  
*Gözlərin tor almış qoca zərgərəm,*  
*Səsimə səs vermir Zahid-Məhərrəm!*

*Ömrümün yolları sazaqlı, qışlı,*  
*Üzümdə dinclik var, içim savaşlı,*  
*Sinəmdə təlatüm, gözlərim yaşlı,*  
*Bu ağır itkiyə çox dözəmmərəm,*  
*Səsimə səs vermir Zahid-Məhərrəm!*

*Oqtayam, içimin tufanı yatmır,*  
*Haraya çatacaq, haraya çatmır,*  
*Yatan dərin yatıb, səsim oyamır,*  
*Fırlanır başıma geniş Yer Kürəm,*  
*Səsimə səs vermir Zahid-Məhərrəm!*



**Coğrafiya elminin görkəmli simalarından olan Zahid Məmmədova və Məhərrəm Həsənova Uca Allahdan rəhmətlik diləyirik! Hər iki alimin işıqlı xatirəsi onları tanıyan insanların qəlbində əbədi yaşayacaqdır. Qəbirləri nurla dolsun!**

Oqtay ZƏNGİLANLI,